

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 90 (24.227)

20 may 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik

## Prezident İlham Əliyev Hindistanın ölkəmizdə yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananın etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir, ilk növbədə, Azərbaycanda Ulu Öndərin anadan olmasının 100-cü ildönümünün qeyd edildiyi bir dövrdə ölkəmizə gəlməsindən böyük məmnunluq hissi keçirdiyini bildirdi. O qeyd etdi ki, görkəmli şəxsiyyət Heydər Əliyevin və Prezident İlham Əliyevin baxışları belə bir nəticəyə gəlməyə əsas verir ki, Azərbaycan çiçəklənən, multikultural və çox güclü iqtisadiyyata malik ölkə qurmaq yolundadır.

Hazırda Azərbaycanın Qoşulmama Hərəkatına, Hindistanın isə Böyük 20-liyə və Şanxay Əməkdaşlıq Təşkilatına sədrlik etdiyini vurğulayan səfir məmnunluq hissi ilə bildirdi ki, ölkəsi Azərbaycanın ilk 5 ticarət tərəfdaşı sırasındadır və ötən il qarşılıqlı ticarətin 155 faiz artması bunun yaxşı göstəricisidir.

Sridharan Madhusudhanan bildirdi ki, Hindistanın da güclü iqtisadiyyata malik olması nəzərə alınaraq ölkələrimiz üçün iqtisadi əməkdaşlığın genişlənməsi baxımından böyük potensial var. O bu xüsusda neft sənayesi və əczaçılıq sahələrini qeyd etdi.

Eyni zamanda səfir Azərbaycanda hökm sürən multikulturalizmin Hindistan üçün çox cəlbedici olduğunu dedi, humanitar sahədə də əlaqələrimizin genişləndirilməsinin önəmini bildirdi.

Diplomat turizm sahəsində əməkdaşlığa toxunaraq Azərbaycana xeyli sayda hindistanlı



turistin səfər etməsinin, xalqlarımız arasında əlaqələrin qədim tarixə malik olmasının, ölkəmizdə çox sayda tarixi abidənin mövcudluğunun turizm sahəsində əməkdaşlıq üçün geniş imkanlar yaratdığını bildirdi. Səfir paytaxtımızda qədim, tarixi binalarla yanaşı, modern üslubda inşa edilmiş tikililərin də xoş təəssürat hissi doğurduğunu dedi.

Sridharan Madhusudhanan informasiya texnologiyaları, energetika, təhsil, ekologiya və digər sahələrdə əməkdaşlığın həyata keçirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı.

Prezident İlham Əliyev Ulu Öndərin müasir Azərbaycan dövlətçiliyinin banisi və ölkəmizin inkişafının təminatçısı olduğunu vurğulayaraq qeyd etdi ki, Ümummilli Lider prezidentlik fəaliyyətinə başlayarkən Azərbaycanın torpaqları ermənilər tərəfindən artıq işğal olunmuşdu, bu işğalın nəticəsində bir milyon soydaşımız tarixi yurdlarından didərgin düşmüşdü, işğal altında olan ərazilərimiz darmadağın edilmişdir. Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin əsas məqsədi ərazi bütövlüyümüzün və müdafiə qabiliyyətimizin təmin edilməsi, güclü dövlət və iqtisadiyyat qurmaq idi. Dövlətimizin başçısı vurğuladı ki, iki il yarım əvvəl Azərbaycan öz torpaqlarını işğaldan azad etdi və beləliklə, Ümummilli Liderin arzu və tapşırıqları həyata keçirildi.

Azərbaycan Prezidenti qeyd etdi ki, 30 illik işğal dövründə xalqımız humanitar fəlakətlə üzləşmişdir, bir milyon soydaşımız evsiz-eşiksiz qalmışdır. Bu fakt Azərbaycanın inkişafı üçün böyük əngəllər törədirdi. İndi – torpaqlarımızın işğaldan azad edildiyi bir dövrdə ölkəmiz bütün sahələrdə böyük potensiala malikdir. İşğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, Vətən müharibəsində əldə olunan Qələbədən sonra Azərbaycan xalqı qürur hissi ilə yaşayır və bu özünü bütün sahələrdə göstərir.

Azərbaycan Prezidenti, eyni zamanda vurğuladı ki, bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadır, ölkəmizə qarşı ərazi iddiaları davam edir. Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını deyən dövlətimizin başçısı qeyd etdi ki, əgər, doğrudan da, Ermənistan Azərbaycan ilə sülh istəyirsə, onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır. Azərbaycan Prezidenti vurğuladı ki, bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik məsələsinə toxunaraq ölkəmizin sədrliyi dövrünün bu Hərəkatın institusional inkişafı üçün çox səmərəli bir dövr olduğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, məlum olduğu kimi, bununla bağlı Azərbaycanın irəli sürdüyü bir sıra mühüm təşəbbüslər uğurla həyata keçirilib. Azərbaycan Prezidenti bundan sonra da Qoşulmama Hərəkatının üzv dövlətləri arasında əməkdaşlığın gücləndirilməsinin, ölkələrin ərazi bütövlüyü və suverenliyinin, məlum Bandunq prinsiplərinə sadiqliyin davam etdirilməsinin vacibliyini vurğuladı.

Prezident İlham Əliyev Hindistanın Qoşulmama Hərəkatının əsasını qoymuş dövlətlərdən biri olduğunu xatırladaraq, bu təsisatın yarandığı dövrdən bəri müxtəlif inkişaf yolu keçməsinə baxmayaraq, onun gələcəkdə qlobal siyasətdə mühüm amilə çevrilməsinin önəmini bildirdi.

Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə toxunan Prezident İlham Əliyev Azərbaycanın uzun illər bu təşkilatda dialoq tərəfdaşı olduğunu, ötən il isə bu təşkilatın Özbəkistanda keçirilmiş sammitində yüksək səviyyədə iştirakımızı önəmli hadisə kimi dəyərləndirdi.

Söhbət zamanı mədəniyyət, nəqliyyat, o cümlədən Şimal-Cənub dəhlizi sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər də müzakirə olundu.

**AZƏRTAC**

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin digər regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da ümumi inkişafa xidmət edən əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, təhsil, səhiyyə, idman, mədəniyyət müəssisələrinin, istehsal sahələrinin və müxtəlif təyinatlı obyektlərin qurulması daim diqqət mərkəzində saxlanılır. Dövlət başçısının davamlı qayğısı nəticəsində muxtar respublikada 2023-cü ilin ilk 4 ayında iqtisadi sabitliyə nail olunub, müdafiə, ərzaq və enerji təhlükəsizliyinə diqqət artırılıb, sosial-iqtisadi islahatların əhatə dairəsi genişləndirilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəsi tərəfindən Naxçıvan Muxtar Respublikasının 2023-cü ilin yanvar-aprel aylarının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə keçirilən müşavirənin Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qarşısında 2024-cü il üçün büdcə planlaşdırılmasının qanunvericiliyə uyğun aparılması, növbəti üç il müddətində muxtar respublika büdcəsinin tamamilə dotasiyasız formalaşdırılması, 2019-2023-cü illəri əhatə edən sosial-iqtisadi inkişafla bağlı Dövlət proqramları ilə real hesabatların təqdim edilməsi, Naxçıvanda yaşıl enerjinin tətbiqinin diqqətdə saxlanılması, xarici şirkətlərin investisiya təkliflərinin dəyərləndirilməsi və digər vəzifələr qoyulub. Həmin vəzifələrin icra vəziyyəti, makroiqtisadi göstəricilərin bütün parametrləri üzrə inkişaf dinamikasının qorunub saxlanması, iqtisadi sahədə həyata keçirilən tədbirlərin yeni dövrün çağırışlarına uyğun olaraq sahibkarlıq fəaliyyətinin, investisiya imkanlarının genişlənməsinə şəraitin yaradılması və digər yönlərdə görülən işlər barədə suallarımızı Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov cavablandırdı.*



## Naxçıvan Muxtar Respublikasında həyata keçirilən islahatlar və struktur dəyişiklikləri müsbət nəticələrini göstərir

***– Səbuhi müəllim, bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə mövcud sabitlik və inkişaf, sahibkarlara göstərilən dövlət dəstəyi, verilən kreditlər sahibkarlığın formalaşmasına, kiçik və orta sahibkarlıq subyektlərinin inkişaf edərək böyük sənaye müəssisələrinə çevrilməsinə stimul yaradır. Naxçıvanda bu sahədə vəziyyət necədir? Yeni dövlət idarəçiliyi modelinin tətbiqindən ötən bir neçə ayda həyata keçirilən islahatlar barədə məlumat verməyinizi istərdik.***

– Çox sağ olun, yeni dövlət idarəçiliyi modelinin tətbiqindən sonra həyata keçirilən islahatlar və əldə olunan uğurlu nəticələr, həqiqətən də, geniş ictimaiyyəti düşündürən aktual məsələdir, güman edirəm ki, qəzetimizin bu təşəbbüsü də əhalini kifayət qədər məlumatlandırmaq baxımından öz effektini verəcək. 2023-cü ilin yanvar-mart ayları ərzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bank, kredit təşkilatları və Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına, ümumilikdə, 66 milyon 885 min manat kredit verilib. Verilmiş kreditlərin 4 milyon 410 min manatı və ya 6,6 faizi sənayenin, 6 milyon 493 min manatı və ya 9,7 faizi ticarətin, 4 milyon 434 min manatı və ya 6,6 faizi kənd təsərrüfatı, 51 milyon 548 min manatı və ya 77,1 faizi isə digər sahələrə verilmiş kreditlərin payına düşüb. Cari ilin yanvar-mart ayları ərzində muxtar respublikada fəaliyyət göstərən banklar vasitəsilə mal-material və avadanlıq alınması üçün xarici ölkələrə 20 milyon 395 min ABŞ dolları, 4 milyon 717 min avro məbləğində vəsait köçürülüb.

***– Bəs ötən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsullarının istehsalı, pərakəndə ticarət dövriyyəsi, xidmət sektoru sahəsində artım müşahidə olunurmu?***

– Əlbəttə, hətta mən deyərdim ki, əhəmiyyətli artım dinamikası izlənilməkdədir. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası çərçivəsində muxtar respublika iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi, yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən sahələrin yaradılması istiqamətində tədbirlər davam etdirilib və hesabat dövründə 62 sahənin yaradılması başa çatdırılıb. Hazırda sənaye məhəlləsi, duz istehsalı müəssisəsi, spirtli içkilərin istehsalı, oksigen istehsalı, avtomobil təmiri, bitki yağı istehsalı, iplik istehsalı, süd emalı müəssisəsi, unlu-qənnadı məmulatları istehsalı, soyuducu anbar, göbələk emalı sahəsi, heyvandarlıq, quşçuluq, bağçılıq və müxtəlif xidmətlər üzrə 33 sahənin yaradılması davam etdirilməkdədir.

Muxtar respublika ərazisində dövlət vəsaiti hesabına malların, işlərin və xidmətlərin qanunvericiliyə uyğun satın alınması, satınalmalar zamanı dövlət vəsaitindən səmərəli və qənaətlə istifadə edilməsi istiqamətində tədbirlər görülür, bu sahədə işlər qanunvericiliyin tələbləri səviyyəsində təşkil edilib. Dövlət əmlaklarının özəlləşdirilməsi ilə bağlı proseslərin aparılması davam etdirilir. Bu da muxtar respublikanın büdcə xərclərinin azalmasında öz müsbət təsirini göstərəcəkdir.

***– Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasəti bu gün ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə müasir çağırışlara uyğun uğurla davam etdirilir. Gənclərlə bağlı reallaşdırılan tədbirlər sırasında onların ümumi təhsil səviyyəsinin artırılması da xüsusi yer alır. Bu məqsədlə hər il müasir avadanlıqlarla zəngin onlarla tam orta məktəb binaları tikilib istifadəyə verilir. Bəs ölkəmizin ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda bu istiqamətdə nə kimi işlər görülür?***

– Sizin də haqlı olaraq qeyd etdiyiniz kimi, ölkəmizin hər yerində, eləcə də muxtar respublikamızda gənc nəslin yüksək səviyyədə təhsil alması ilə bağlı tədbirlər həyata keçirilir, bədən tərbiyəsi və idmanın kütləvi hal almasına, gənclərin fiziki inkişafına xüsusi diqqət yetirilir. Cari ilin ilk 4 ayında da bu istiqamətlərdə işlər diqqətdə saxlanılıb. Təhsil imkanlarının artırılması məqsədilə 198 şagird yerlik Şərur rayonunun Həmzəli, 414 şagird yerlik Vərməziyar və Babək rayonunun 378 şagird yerlik Vayxır kənd tam orta məktəbləri istifadəyə verilib. Hazırda 4 təhsil müəssisəsində – Babək rayonunun Nehrəm qəsəbə 3 nömrəli, Ordubad rayonunun Azadkənd tam orta məktəbi, Babək və Şahbuz rayonlarının məktəbdənkənar təhsil müəssisələrində təmir-tikinti işləri davam etdirilir.

***– Ölkəmizdə sosial sahə dövlət siyasətinin əsas prioritetlərindən hesab olunur, ilin müxtəlif vaxtlarında ölkə başçısının verdiyi tapşırıq və sərəncamlara əsasən bu istiqamətdə layihələr reallaşdırılır. Cari ilin ötən dövründə muxtar respublikada insanların rifahının yüksəldilməsinə xidmət edən hansı sosialyönümlü tədbirlər həyata keçirilib?***

Ardı 2-ci səhifədə

– Bu dövr ərzində ölkə başçısının müvafiq tapşırıq və sərəncamları əsasında Naxçıvanda şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinə yönələn tədbirlərin icrası davam etdirilib. Vətən müharibəsində xəsarət alaraq əlillik təyin edilmiş şəxslərdən 12 nəfəri avtomobillərlə təmin olunub, şəhid ailəsi və müharibə əlili olan 8 ailəyə isə mənzillər təqdim edilib. Həmçinin 187 nəfərə 357 ədəd texniki reabilitasiya, 66 nəfər sağlamlıq imkanları məhdud şəxsə isə 275 ədəd köməkçi reabilitasiya vasitələri verilib. Muxtar respublikada məşğulluğa dair mövcud reyestrdə 1775 nəfər qeydiyyata alınıb, onlardan 172 nəfərin qeydiyyatı birdəfəlik dayandırılıb, 1031 nəfərə işaxtaran və 572 nəfərə isə işsiz statusu verilib, 308 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunub. Müvafiq dövr ərzində 151 nəfər əlilliyi olan şəxsə maddi köməklik göstərilib, 8 əlilliyi olan şəxs sanatoriya-kurort yollayışı ilə təmin edilib.

***– Ölkəmizin iqtisadi inkişaf strategiyasında enerji təhlükəsizliyinin etibarlı təminatı başlıca istiqamətlərdən hesab olunur, son illərdə elektrik stansiyaları və ötürücü xətlərin müasir standartlara uyğunluğuna diqqət artırılır, xüsusilə yaşıl enerjiyə keçid prosesi sürətləndirilir, alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə üstünlük verilir. Naxçıvanda da bu yöndə həyata keçirilən tədbirlər irimiqyaslıdır və nəticədə, muxtar respublika enerji idxalçısından enerji ixracatçısına çevrilib. Cari ilin hesabat dövründə bu sahədə hansı yeniliklər əldə olunub?***

– Bildiyiniz kimi, bu gün dünyada mühüm və strateji rola malik olan enerji siyasəti ölkəmizdə də dövlət siyasətinin başlıca prioritetini təşkil edir. 2023-cü ilin ilk 4 ayı ərzində muxtar respublikamızda da elektrik stansiyalarında, yüksəkgərginlikli elektrik verilişi xətlərində, müxtəlif gərginlikli transformator yarımstansiyalarında qrafikə uyğun olaraq əsaslı və cari təmir işləri aparılıb, istehlakçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, yaşayış sahələrinin, məktəblərin, sosial obyektlərin, hərbi hissələrin, nasos yarımstansiyaları və artezian quyularının elektrik təchizatı üçün yeni transformator yarımstansiyalarının qurulması, müxtəlif gərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində tədbirlərin həyata keçirilməsi işləri davam etdirilib.

***– Səbuhi müəllim, müşahidələrimizə əsasən deyə bilərik ki, gələcəkdə alternativ enerji mənbələri hesabına muxtar respublikanın öz tələbatını tam ödəməsi əsas hədəfə çevrilib.***

– Tamamilə haqlısınız. Bu məqsədlərə çatmaq üçün əsas prioritetlər günəş və külək elektrik stansiyalarının qurulmasıdır. Cari dövrdə Şərur rayonunda gücü 8 MVt olan Günəş Elektrik Stansiyasının ərazisində yeni 3 meqavat Günəş Elektrik Stansiyasının tikinti-quraşdırma işləri davam etdirilir və cari ilin may ayında stansiyanın istifadəyə verilməsi nəzərdə tutulur. Hazırda tikilməkdə olan su elektrik stansiyalarının layihə gücü 51,6 meqavat təşkil edir. Ümumilikdə, günəş elektrik stansiyalarının layihə gücü 39, su elektrik stansiyalarının layihə gücü isə 68,4 meqavatdır.

***– Naxçıvan Muxtar Respublikasının ölkəmizin digər ərazisi ilə nəqliyyat əlaqəsi, əsasən, hava və İran İslam Respublikası ərazisindən keçməklə avtobuslar vasitəsilə təmin olunur. Eyni zamanda hava yolu ilə Türkiyə və Rusiyaya da uçuşlar təşkil edilir. Cari ilin ilk 4 ayında nəqliyyat daşımalarının vəziyyəti necə olub?***

– Muxtar respublikada sərnişin daşımalarda 2023-cü ilin ilk 4 ayı ərzində yerli hava xətləri ilə Bakı-Naxçıvan-Bakı və Naxçıvan-Gəncə istiqamətlərində 95 min 139 sərnişin, 1508 ton baqaj, 495 ton yük, 6,5 ton poçt daşınıb. Beynəlxalq hava xətti ilə Naxçıvan-İstanbul və Naxçıvan-Moskva istiqamətlərində min 642 sərnişin və 27,6 ton baqaj ünvana çatdırılıb. Naxçıvan-Bakı-Naxçıvan istiqamətindəki avtobus marşrutlarının fasiləsiz şəkildə hərəkəti təmin edilib. Müvafiq marşrutla cari ilin 4 ayı ərzində Naxçıvandan Bakıya 323 reys edilərək 9737 sərnişin, Bakıdan Naxçıvana isə 325 reys olmaqla, 8928 sərnişin daşınıb.

***– Qeyd etdiyiniz məlumatlar belə deməyə əsas verir ki, ötən bir neçə ayda muxtar respublikada həyata keçirilən islahatlar sayəsində bir sıra parametrlər üzrə iqtisadi sabitliyə və inkişafa nail olunub, mövcud resurslardan səmərəli istifadə nəticəsində müəyyən makroiqtisadi göstəricilərdə artım müşahidə edilir. Şübhəsiz ki, bütün bunlar vergi prosesinə, maliyyə və büdcə gəlirlərinin artımına da təsirsiz ötüşmür.***

– Cari dövrdə aparılan maliyyə və büdcə siyasəti çərçivəsində Naxçıvan Muxtar Respublikasında vergilərin və sığorta haqlarının vaxtında və tam yığılması təmin olunub, dövlət vergi orqanlarının işinin düzgün qurulması məqsədilə vergi orqanlarının strukturunda əsaslı islahatlar aparılıb. Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin strukturu təkmilləşdirilib, yeni ərazi vergi idarələri yaradılıb, muxtar respublikada ilk dəfə olaraq Naxçıvan şəhərində yeni avadanlıqlarla təchiz edilmiş xidmət mərkəzi qurularaq vergiödəyicilərinin istifadəsinə verilib.

Muxtar respublikada 2023-cü ilin ilk 4 ayında büdcənin gəlirləri, ümumilikdə, 44 milyon 867 min manat proqnoza qarşı 55 milyon 878 min manat icra edilməklə proqnoza 124,5 faiz əməl olunub. Bu məbləğ 2022-ci ilin analoji 4 ayı ilə müqayisədə 5 milyon 482 min manat çoxdur. Yığılan vəsaitin 51 milyon 61 min manatı vergi orqanlarının xətti ilə, 3 milyon 188 min manatı yol vergisi şəklində büdcəyə daxil olub. Vergi orqanları tərəfindən proqnoza 118,3 faiz əməl edilib.

Diqqətinizə çatdırım ki, 2023-cü ilin 4 ayında ötən ilin eyni dövrü ilə müqayisədə vergi daxilolmaları üzrə 15 milyon 17 min manat və ya 41,7 faiz, məcburi sosial sığorta daxilolmaları üzrə 5 milyon 636 min manat və ya 13,1 faiz, işsizlik sığortası daxilolmaları üzrə 178 min manat və ya 16,7 faiz, icbari tibbi sığorta daxilolmaları üzrə 840 min manat və ya 12,6 faiz artım olub. Onu da deyim ki, bu artım yeni qeydiyyatdan keçmiş vergiödəyicilərinin, obyektlərin və nəzarət-kassa aparatlarının, əlavə dəyər vergisi ödəyicilərinin sayında və digər sahələrdə də izlənilməkdədir. Belə ki, yeni qeydiyyatdan keçmiş vergiödəyicilərinin sayında 1056 ödəyici və ya 2,2 dəfə, əlavə dəyər vergisi ödəyicilərinin sayında 174 ödəyici və ya 1,8 dəfə, yeni qeydiyyatdan keçmiş obyektlərin sayında 495 obyekt və ya 2,7 dəfə, yeni qeydiyyata alınmış nəzarət-kassa aparatlarının sayında 1631 ədəd və ya 16 dəfə, yeni qeydiyyata alınmış pos-terminalların sayında 281 ədəd və ya 4,6 dəfə, nağdsız əməliyyatlar üzrə dövriyyədə 74 milyon 795 min manat və ya 2,8 dəfə artım olub. Həmçinin ilin əvvəli ilə müqayisədə 1 may 2023-cü il tarixə aktiv vergiödəyicilərinin sayı 14 faiz olmaqla, 1693 vergiödəyicisi artıb. 2023-cü ilin ilk 3 ayı ərzində “ƏDVgerial” kampaniyası çərçivəsində 104,5 min manat əlavə dəyər vergisi istehlakçılara geri qaytarılıb.

***– Muxtar respublikanın sosial-iqtisadi inkişafında, heç şübhəsiz ki, dövlət büdcəsinin xərclərinin səmərəliliyinin və büdcə daxilolmalarının artırılması da az rol oynamır. Bu istiqamətdə hansı işlər görülüb və nə kimi irəliləyişlər əldə olunub?***

– Aktual bir məsələyə toxundunuz və deyim ki, fikrinizlə tamamilə şərikəm. Qeyd edim ki, cari dövrdə bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilib. Muxtar respublikada aparılan islahatlar, struktur dəyişiklikləri, görülən tədbirlər müsbət nəticələr verməkdədir. 2023-cü ildə büdcə gəlirlərinin nəzərdə tutulan vəsaitdən 20 faizədək artıq yığılacağı planlaşdırılır. Əməkhaqqı, sosial və digər ödənişlərlə bağlı xərclərin bir hissəsinin həmin vəsait hesabına həyata keçirilməsi nəzərdə tutulur ki, bu da mərkəzi büdcədən ayrılan dotasiyanın həcminin azalmasına gətirib çıxaracaqdır.

2023-cü ilin yanvar-aprel aylarında Naxçıvan Muxtar Respublikası büdcəsinin xərcləri 179,8 milyon manat proqnoza qarşı 82,8 faiz və ya 148,9 milyon manat məbləğində icra edilib. Beləliklə, 30,9 milyon manat məbləğində vəsaitə qənaət edilib. Eyni zamanda “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcə layihəsinin hazırlanması istiqamətində işlər davam etdirilir. Azərbaycan Respublikasının müvafiq normativ-hüquqi aktlarına əsasən muxtar respublikanın bəzi qurumları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində baş idarə və ya idarə kimi saxlanılmışdır. Qeyd olunan qurumların növbəti il üçün büdcənin tərtibi prosesində müvafiq normativ-hüquqi aktlara əsasən tabe olduqları müvafiq icra hakimiyyəti orqanlarının saxlanması xərclərində nəzərə alınması məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə müvafiq məktub ünvanlanıb. Belə ki, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin Naxçıvan Baş İdarəsinin, habelə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin, Hesablama Palatasının və Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikası üzrə idarələrinin, Elm və Təhsil Nazirliyinin Təbii Ehtiyatlar İnstitutunun, Bioresurslar İnstitutunun, Batabat Astrofizika Rəsədxanasının, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin, Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidmətinin və Naxçıvan Hərbi Prokurorluğunun saxlanma xərclərinin mərkəzdən həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda büdcə dürüstləşməsi aparılarkən cari ilin 2-ci yarım ilində qeyd edilənlərin nəzərə alınması və xərclərin mərkəzə ötürülməsi planlaşdırılır.

***– Prezident cənab İlham Əliyevin rəhbərliyi və birbaşa tapşırığı ilə ölkəmizin hər yerində maliyyə siyasətinin düzgün, şəffaf aparılması, büdcə gəlirlərindən səmərəli istifadə, israfçılıq, qeyri-qanuni istifadə hallarına yol verilməməsi diqqətdə saxlanılır. Bildiyimiz kimi, hər il gəlir və çıxarlar hesablanmaqla dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasına dotasiya ayrılır. Büdcə gəlirlərindən, maliyyə vəsaitlərindən düzgün istifadə mexanizminin təkmilləşdirilməsi və beləliklə də, ayrılan dotasiyanın azaldılması ilə bağlı görülən işlər barədə məlumat verməyinizi istərdik.***

– Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti 2023-cü ildə büdcə gəlirlərinin maksimum səviyyədə artırılması hesabına muxtar respublikaya ayrılan dotasiyanın həcminin azaldılması üçün ciddi işlər aparmaqla müvafiq tədbirlər həyata keçirməkdədir ki, bunun da ilin sonunadək əhəmiyyətli dərəcədə müsbət nəticələri olacaqdır. 2023-cü ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının mərkəzləşdirilmiş xərclərindən Naxçıvan Muxtar Respublikası büdcəsinə ayrılması nəzərdə tutulan 134,3 milyon manat dotasiya 21,8 faiz və ya 29,3 milyon manat az olmaqla, 105 milyon manat məbləğində icra edilib. 2023-cü ilin ilk 4 ayında muxtar respublikada büdcə vəsaitlərinin qanunauyğun və səmərəli istifadəsinə nəzarət daha da gücləndirilib, əməkhaqqı, sosial ödənişlər, digər zəruri xərclərin vaxtında ödənilməsi təmin edilib, etibarlı maliyyə nəzarəti sistemi formalaşdırılıb. Həmçinin muxtar respublika əhalisinin maliyyə resurslarına çıxış imkanları asanlaşıb, real sektorun inkişafına yönləndirilən tədbirlər həyata keçirilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sosial-iqtisadi inkişaf məsələlərinin həlli ilə yanaşı, həm də dövlət idarəçiliyinin təkmilləşdirilməsini, bütün sahələrdə şəffaflığın təmin edilməsini, inkişafa mane olan neqativ halların aradan qaldırılmasını əsas vəzifələrdən biri kimi müəyyənləşdirib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə birlikdə effektiv idarəçiliyin təmin edilməsi, vətəndaşlarla dövlət qurumları arasında dialoqun müasir tələblər səviyyəsində və qanun çərçivəsində qurulması, iqtisadi, sosial, mədəni və digər məsələlərin operativ və səmərəli həlli təmin edilməkdədir. Artıq bu sahədə müsbət dəyişikliklər müşahidə olunmaqdadır.

***– Suallarımızı ətraflı cavablandırdığınız üçün sağ olun!***

✍ **Nail ƏSGƏROV**

## “Naxçıvan” Universitetində 19 may – Atatürkü Anma, Gənclik və İdman Günü qeyd olunub





*“Naxçıvan” Universitetində 19 may – Atatürkü Anma, Gənclik və İdman Günü münasibətilə tədbir keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, Mustafa Kamal Atatürkün və hər iki ölkənin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himnləri səsləndirilib.*

Tədbiri giriş sözü ilə açan “Naxçıvan” Universitetinin rektoru, dosent Anar Kazımov 19 may gününü böyük tarixi bayram adlandırıb, Atatürkün Türkiyə həyatında oynadığı roldan, əbədiyaşar ideyalarından bəhs edib. Azərbaycan-Türkiyə münasibətlərindən, bu əlaqələrin dostluq, qardaşlıq, tərəfdaşlıq zəminində inkişafından danışıb.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya çıxışında Türkiyənin milli azadlıq mücadiləsindən danışıb. Baş konsul deyib ki, Mustafa Kamal Atatürkün 104 il öncə mayın 19-da Samsunda yandırdığı istiqlal məşəli Ərzurumu, Sivası, Ankaranı, qarış-qarış bütün Anadolunu dolaşıb, böyük zəfəri və Cümhuriyyətin elanını mümkün edib. Azərbaycanla dostluq, qardaşlıq münasibətlərini hər zaman ön planda saxlayan Mustafa Kamal Atatürk *“Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir”*, – deyərək xalqlarımız arasındakı münasibəti tam şəkildə ifadə edib. Hər iki dahi lider – həm Mustafa Kamal Atatürk, həm də Ulu Öndər Heydər Əliyev Türkiyə və Azərbaycanın qardaşlaşması, dostlaşması yolunda böyük işlər görüblər. Bu gün ölkə prezidentləri cənab İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən tərəfdaşlıq, müttəfiqlik əlaqələri yüksələn xətlə inkişaf etdirilir.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayev və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri İlahə Haqverdiyeva çıxış ediblər. Çıxışlarda dahi öndərlər Mustafa Kamal Atatürk və Heydər Əliyev ideyalarının əhəmiyyətindən, xalqlarımızın mehriban qardaşlıq münasibətlərindən danışılıb.

Sonra maraqlı bədii kompozisiya təqdim edilib, “Naxçıvan” Universitetinin azərbaycanlı və türk tələbələri milli geyimlərdə rəqslər edib, vətənpərvərlik mövzusunda müxtəlif şeir və musiqi nömrələri səsləndirilib.

**Aynur ƏLİYEVA**
***“Naxçıvan” Universitetinin İctimaiyyətlə əlaqələr və marketinq sektor müdiri***

## Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi Perinatal Mərkəzə çevrilib

Son illərdə ölkəmizdə, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında səhiyyə sistemi yenidən qurularaq inkişaf etdirilmiş, bu sahədə dövlət əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Səhiyyənin maddi-texniki bazası ən son standartlara cavab verən tibbi avadanlıq və ləvazimatlarla təchiz edilmiş, kadr potensialı gücləndirilmiş, infrastrukturu yenilənmişdir.

Muxtar respublikada səhiyyə sahəsində yeniliklər və inkişafa doğru yeni layihələr həyata keçirilir, ana və uşaq sağlamlığının qorunması istiqamətində mühüm işlər görülür. Belə layihələrdən biri də Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin Perinatal Mərkəzə çevrilməsidir. Belə ki, yeni yaradılan Perinatal Mərkəz yeni xidmətlərlə – hamiləliyin patologiyası hallarında qadınlara ixtisaslaşdırılmış tibbi yardım göstərməklə yanaşı, hər hamilə qadın üçün fərdi olaraq doğuşa hazırlıq və doğuşun aparılması taktikasının hazırlanması, o cümlədən dünyaya yenicə göz açan körpələrə yüksəkixtisaslı diaqnostik, konsultativ və müalicə yardımı göstərən yeni tipli səhiyyə müəssisəsi kimi fəaliyyətini davam etdirəcək.

Ən müasir tibbi avadanlıq və cihazlarla təchiz olunan Perinatal Mərkəzdə hamiləliyin patologiyası, anesteziologiya və reanimasiya, yeni doğulmuşların intensiv terapiyası, konsultativ məsləhət və digər şöbələr fəaliyyət göstərir ki, burada da hamilə və zahı qadınlara tibbi yardım edilir, onların müayinəsi və sanitar-əksepidemik rejim təşkil olunur. Bununla belə yeni doğulmuşlara tibbi yardım və profilaktik peyvəndlər edilir.

Nəticədə, Perinatal Mərkəzin yaradılması ilə ana olmağa hazırlaşan qadınlara, eləcə də körpələrə tibbi yardımın keyfiyyəti daha da yaxşılaşdırılacaq, ana və uşaq sağlamlığının qorunması işi yeni səviyyəyə qaldırılacaqdır.

Muxtar respublikanın səhiyyə sahəsində görülən işlər və həyata keçirilən yeni layihələr, ilk növbədə, insanların sağlamlığının qorunması işinə xidmət edir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***



# Şanlı Zəfərə gedən yolun başlanğıcı

*Qüdrətli Azərbaycan Ordusunun parlaq Tarixi Qələbələrindən olan şanlı Günnüt əməliyyatından 5 il ötür. Tarixə **"Uğurlu Naxçıvan əməliyyatı"** kimi düşən Günnüt zəfəri 2018-ci il mayın 20-dən 27-dək Naxçıvan ərazisində baş vermiş Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında hərbi münaqişə zamanı başlayan döyüşlərin xalqımızı qalibiyyətə aparan ilk addımlarındandır. Beş il öncə Naxçıvandan ölkəmizə yayılan bir müjdə – Şərur rayonunun Günnüt kəndi və ətraf ərazilərin erməni işğalından azad edilməsi xəbəri hər kəsin çoxdan gözlədiyi qələbə arzusunun təcəssümü oldu.*

Günnüt zəfəri xalqımızı torpaqlarımızın düşmən tapdağından azad edilməsinə ruhlandıran Aprel döyüşlərindən sonra düşmən üzərində ikinci qələbəmiz idi. Zəfərə gedən yolun başlanğıcı olan Aprel, Günnüt və Tovuz döyüşləri xalqın müzəffər orduya olan etimadının özünə qayıtdığı tarixi anlar, məramlar oldu. Məhz bu döyüşlərdən sonra xalq Ali Baş Komandan cənab İlham Əliyev ətrafında birləşib haqq savaşına qalxdı. Qüdrətli sərkərdənin "Dəmir yumruq" əməliyyatı ilə Azərbaycan Ordusu 30 illik Qarabağ həsrətinə son qoydu.

…Ötən əsrin 90-cı illərində Şərur rayonunun Sədərək, Günnüt, Havuş və Şahbulaq kəndləri aramsız düşmən hücumlarına məruz qalırdı. Yaşayış binaları, o cümlədən bir çox sosial obyektlər dağıdılır, qaynar həyatın hökm sürdüyü qədim yaşayış yerlərimiz erməni vandalları tərəfindən xarabalığa çevrilirdi. Kəndlərdə yaşayış evləri ilə birlikdə məktəblər, tibb məntəqələri, kitabxanalar, eləcə də kənd qəbiristanlıqları, məscidlər viran qoyulurdu, kənd camaatı rayonun digər yaşayış məntəqələrinə, əksəriyyəti isə Mahmudkəndə köçməyə məcbur qalırdı. Günnüt kəndi də məhz həmin ərəfədə, 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən işğal edildi. Həmin dövrdə dünya səviyyəsində siyasi güc və zaman işğalçı Ermənistanın xeyrinə işləyirdi. Amma bu gün zaman, silahlı qüvvə və iqtisadi güc tərəzisi artıq tamamilə əksinə, yəni Azərbaycanın tərəfinə yönəlib.

Təbii ki, ölkəmizdə böyük nailiyyətlərin əldə edilməsi Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasətin uğurla davam etdirilməsi və xalq-ordu birliyinin nəticəsində mümkün oldu. Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan zaman təşəbbüsü və rəhbərliyi ilə muxtar respublikamızda ordu quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla bərabər, həm də müstəqil Azərbaycanda Milli Ordu quruculuğu prosesinin başlanğıcı idi. Qısa müddət ərzində Azərbaycan Ordusu böyük inkişaf yolu keçdi. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Ordusu Ali Baş Komandanın uğurla həyata keçirdiyi siyasətin nəticəsində dünyanın inkişaf etmiş ordular sırasında özünəlayiqli yer tutdu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 may 2018-ci ildə Naxçıvan Muxtar Respublikasına səfəri zamanı ordu quruculuğu ilə bağlı görülən işləri yüksək qiymətləndirərək ***"İlk növbədə, Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir"***, – dedi. Ali Baş Komandanın bu açıqlamasından ciddi narahatlıq duyan işğalçı Ermənistan az sonra Əlahiddə Ümumqoşun Ordunun Qarsda keçirilən Türkiyə-Azərbaycan birgə döyüş atışlı taktiki təlimlərini məyusluqla izlədi və dərhal Şərur-Sədərək istiqamətində növbəti təxribata əl atdı. Cavab isə qəti və çox sərt oldu. Belə ki, 2018-ci ilin may ayında Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi əməliyyat nəticəsində işğaldan azad edildi. Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhəddi boyu əlverişli hədlərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulmuş məqsədə nail olundu. 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilən Şərur rayonunun Günnüt kəndi 26 ildən sonra ordumuzun nəzarəti altına keçdi. Hərtərəfli düşünülmüş və dəqiqliklə planlaşdırılmış tədbirlərin həyata keçirilməsi ilə bölmələrimiz ilkin mövqelərdən dərinliyə irəliləyərək daha əlverişli mövqelərdə möhkəmləndi, Günnüt kəndi ətrafındakı yüksəkliklər, Qızılqaya dağı və Qaraqaya dağlarında yeni mövqelər ələ keçirdi. Dərələyəz mahalının Arpa kəndində və Mehridərə vadisində düşmən fəaliyyəti nəzarətə götürüldü. Qəlbləri Vətən eşqi ilə döyünən vətəndaşlarımız bölmələrə yeni yolların çəkilişində yaxından iştirak etdi, bu birliyi görən düşmən qüvvələri yollarda işləyən mülki texnikalara belə atəş açdılar. Özünün həyatı və texnikasının sıradan çıxarılması bahasına könüllü surətdə vətəndaşlıq borcunu yerinə yetirən insanlarımızın sayəsində mövqelərə yeni yollar çəkildi. 26 illik yurd həsrəti sona çatan kənd camaatı maşın karvanı ilə doğma yurdlarına qayıtdı, əzizlərinin məzarlarını ziyarət etdilər. Günnüt məzarlığında 26 il sonra Quran oxundu. Öz ata-baba yurdlarına, doğma ocaqlarına qayıdan Günnüt kəndinin sakinləri əcdadlarının uyuduğu qəbiristanlıqda dünyasını dəyişmiş günnütlülərin və şəhidlərimizin ruhlarına dualar etdi. Günnüt camaatı qüdrətli ordumuzun onlara bəxş etdiyi sevinc və xoşbəxtliyə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə etdilər.

Bir məqamı da qeyd edək ki, düşmən əsgərlərinin 26 il ərzində "yaşayışı üçün" yaradılmış şəraitə nəzər salsaq, necə acınacaqlı vəziyyətdə xidmət etdiklərini, aclıq, səfalət, qeyri-insani sosial şəraitdə yaşayan Ermənistan ordusunun Azərbaycan Ordusu ilə müqayisəyə gəlməyəcək dərəcədə geridə qaldığını aydın şəkildə görə bilərik. Erməni işğalından azad edilmiş yeni mövqelərdə qısa müddət ərzində hərbi qulluqçularımız üçün yaradılmış şərait düşmənlərimizə gözdağıdır. Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən bütün mövqelərində şəxsi heyət üçün nümunəvi xidmət şəraiti yaradılıb. Bütün bunlar da onu deməyə əsas verir ki, düşmən ordusundan fərqli olaraq bizim ordumuz hərtərəfli təminata, ən müasir silah-sursata və yenilməz, qətiyyətli, peşəkar şəxsi heyətə malikdir.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün hər bir vətəndaşımız rahat, firavan, sabit şəraitdə yaşayır, Azərbaycan əsgərinə güvənərək öz gündəlik fəaliyyəti ilə məşğul olur. Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti qədim hərb ənənələrinə və mübarizə tarixinə malik olan Naxçıvanımızın müdafiəsində cəsarətlə dayanır, Ümummilli Lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq müstəqilliyimizin qorunmasında və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında öz vəzifələrini şərəflə yerinə yetirir. İllər öncə Günnüt zəfərində iştirak edən igid oğullarımız 44 günlük Vətən savaşımızda da, Qarabağımızın azadlığa qovuşmasında da böyük hünər, şücaət göstərdilər. Günnüt zəfəri ilə qələbənin ruhunu hiss edən şanlı Azərbaycan Ordusu işğal altındakı digər torpaqlarımızda da üçrəngli bayrağımızı dalğalandırdı. Addımını inamla atan mübariz Azərbaycan əsgəri Günnüt dağlarından Şuşaya, Cıdır düzünə "Mübariz" və "Polad" addımlarla irəliləyərək Qələbə sorağını Şuşadan gətirdi! Hər kəsin səbirsizliklə gözlədiyi tarixi çıxışında – xalqa müraciətində Ali Baş Komandan böyük qürur və fəxarətlə hissiylə dedi: ***"Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad edirik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"***

**Ramal MƏMİŞOV**
*jurnalist*

# Aleks Haykens: "Naxçıvanla prioritet təşkil edən sahələrdə əməkdaşlıq edəcəyik"

*17-20 may tarixlərdə BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Aleks Haykens Naxçıvana səfər edib. Səfər çərçivəsində bir sıra mühüm tədbirlər keçirilib, Naxçıvanın səhiyyə, təhsil müəssisəsi, istirahət yerləri ilə tanışlıq olub.*



BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Aleks Haykens "Şərq qapısı" qəzetinə müsahibə verib:

– Mən, hər şeydən əvvəl, burada olmaqdan çox xoşbəxtəm. Naxçıvan Azərbaycanın qonaqpərvər insanları, gözəl təbiəti ilə seçilən hissəsidir. Digər tərəfdən səfalı, sakit, təhlükəsiz yerdir. Buradakı insanlar öz işlərinə böyük öhdəliklə, sədaqətlə və böyük həvəslə yanaşırlar.




Azərbaycanla UNICEF arasında bir çox sahələrdə uğurlu əməkdaşlıq vardır. Bu əməkdaşlığı Naxçıvanla da edəcəyik. Burada bir neçə gün ərzində bir sıra təhsil, səhiyyə müəssisəsi ilə tanış olduq. Müəssisələrdəki vəziyyət kifayət qədər yaxşı görünürdü. Naxçıvan şəhər 3 nömrəli tam orta məktəb, Naxçıvan Gənclər Mərkəzi, Perinatal Mərkəz olduqca xoş təəssürat bağışlayan, həmçinin böyük potensiallı olan müəssisələr idi. Biz 3 nömrəli məktəbin şagirdləri ilə söhbət etdik, onlarda gələcəyə dair böyük potensial var idi. Həmçinin Səhiyyə Nazirliyi ilə birgə səhiyyə sisteminin yenidən strukturlaşdırılması, yenidən təşkili fonunda görüləcək işlər barəsində həmsöhbət olduq. Hiss olunurdu ki, burada yeni təşəbbüslər, yenidənqurma prosesi gündəmdədir. Qarşılıqlı razılaşma əldə edildi ki, prioritet təşkil edən məsələlərlə bağlı fikir mübadiləsini davam etdirək və səhiyyə, təhsil kimi sahələrdə əməkdaşlıq edək. Gələcəkdə onların daxilində konkret hansı proqramlar, hansı layihələr, hansı təşəbbüslər olacaq onları müəyyənləşdirmək lazımdır. Maliyyə tələb olunduğu üçün biz onları konkret layihələr üzrə təyin etməliyik. Qeyd edim ki, Naxçıvanda artıq fəaliyyətə başladığımız bir layihə var. Naxçıvan Muxtar Respublikasında ana və uşaqların sosial rifah vəziyyətinin, insan inkişafının qiymətləndirilməsi və Dayanıqlı İnkişaf Məqsədləri ilə müəyyən edilmiş hədəflərə çatmanın ölçülməsi üçün beynəlxalq müqayisəliliyi təmin edən statistik məlumatların əldə edilməsi məqsədilə 2023-cü ilin iyun-avqust aylarında Çoxgöstəricili Klaster Sorğusu (MICS) həyata keçiriləcəkdir. May ayının 18-də Naxçıvanda bu sorğu üzrə sahə işlərini həyata keçirəcək heyət üçün təlimlərə başlanılıb. Dövlət Statistika Komitəsi ilə birlikdə həyata keçiriləcək sorğunun nəticəsində bir sıra göstəricilərlə bağlı, yəni analar, uşaqlar, suyun keyfiyyəti və sair bir çox məlumatlar toplanılacaq, Azərbaycan hökuməti tərəfindən istifadə olunacaq. Ona görə də, tədbir olduqca əhəmiyyətlidir. Bütün Naxçıvan boyunca 1280 ailə ilə görüşlər keçiriləcək, müsahibələr aparılacaq. Təlim 30 gün davam edəcək, ardınca 6 həftə sahə işi həyata keçiriləcək. Təlimdə iştirak edənlər Dövlət Statistika Komitəsi ilə birlikdə Naxçıvan əhalisi arasından seçilmiş iştirakçılardır. Onlar təlim zamanı ən yüksək səviyyədə lazımi bilikləri əldə edəcəklər ki, sonra sahə işində də keyfiyyətli məlumatların toplanılması ən yüksək səviyyədə həyata keçirilsin. Belə layihələrin davamlı olacağına əminik.

Qeyd edək ki, BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri Aleks Haykens və digər əməkdaşlar səfərin sonuncu günü muxtar respublikada ilkin səhiyyə xidmətinin təşkili ilə tanışlıq məqsədilə Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında da olacaqlar.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Etnoqraf-alim Hacı Qadir Qədirzadənin 75 illiyinə həsr olunmuş tədbir keçirilib



Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tanınmış etnoqraf-alim Hacı Qadir Qədirzadənin anadan olmasının 75 illiyi münasibətilə tədbir təşkil olunub. Tədbirdən öncə Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun kollektivi alimin Cəhri kənd qəbiristanlığındakı məzarını ziyarət edib.

AMEA Naxçıvan Bölməsində keçirilən yubiley tədbirini giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. O, Hacı Qadir Qədirzadənin həyat və fəaliyyətinin əsas məqamlarına nəzər salıb, sahib olduğu mühüm insani keyfiyyətlərindən danışıb.

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov tədbirdə "Hacı Qadir Qədirzadənin həyatı və elmi-pedaqoji fəaliyyəti" mövzusunda məruzə edib. Məruzədə diqqətə çatdırılıb ki, 20 may 1948-ci ildə indiki Babək rayonunun Cəhri qəsəbəsində dünyaya göz açan Hacı Qadir İbrahim oğlu Qədirzadə ali təhsilini başa vurduqdan sonra Cəhri kənd orta məktəbində müəllim, Naxçıvan Elm Mərkəzində kiçik elmi işçi, Arxeologiya, Etnoqrafiya və Folklor şöbəsinin, Arxeologiya və etnoqrafiya şöbəsinin müdiri, sonra isə AMEA-nın Naxçıvan Regional Elm Mərkəzində elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmış, 2003-cü ildən AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda elmi işlər üzrə direktor müavini kimi fəaliyyətini davam etdirmişdir.

Hacı Qadir Qədirzadə 1983-cü ildə namizədlik dissertasiyasını, 2004-cü ildə isə "Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr" adlı doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir, 2007-ci ildə AMEA-nın müxbir üzvü seçilmiş, 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Tədbirdə Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli, əməkdaşlardan filologiya üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova, tarix elmləri doktoru, dosent Emin Şıxəliyev və İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Onomastika şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Rzayev çıxış ediblər.

Sonda alimin yaxın qohumu İqrar Əliyev çıxış edərək Hacı Qadir Qədirzadə ilə bağlı xatirələrini bölüşüb, ailə üzvləri adından alimin elmi irsinə göstərilən diqqət üçün tədbir təşkilatçılarına təşəkkür edib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Müasir rabitə infrastrukturu qurulub



Muxtar respublikada rabitə xidmətlərinin yaxşılaşdırılması, əhatə dairəsinin genişləndirilməsi, göstərilən xidmətlərin keyfiyyətinin artırılması istiqamətində müvafiq tədbirlər davam etdirilir. Belə ki, yaşayış məntəqələrində yeni fiber-optik xətlər çəkilir, yeni paylayıcı şkaflar quraşdırılır, yeni abonent qutuları əlavə olunur.

Bu tədbirlər çərçivəsində əhali və dövlət qurumları ilə yanaşı, dini obyektlərin də rabitə infrastrukturu ilə təmin olunması diqqətdə saxlanılır. Belə ki, "Arkoz İnşaat Şirkəti" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə Naxçıvan Şəhər Rabitə İdarəsi arasında bağlanmış müvafiq müqaviləyə əsasən Naxçıvan şəhərində yeni inşa olunan Heydər məscidi kompleksinə rabitə xətlərinin çəkilişi həyata keçirilib. Bu məqsədlə 1300 metrdən artıq fiber-optik xətt və 1200 metrə yaxın müxtəliftutumlu kabellər çəkilib, zəruri avadanlıqlar quraşdırılıb.

Həyata keçirilən tədbirlər abonentlərin keyfiyyətli rabitə və internet xidmətləri ilə təmin olunmasına şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Metrologiya keyfiyyətin yüksəldilməsinə zəmin yaradan mühüm ünsürlərdəndir

*Müasir cəmiyyətin bütün həyat və fəaliyyət istiqamətləri – səhiyyə, ekologiya, müdafiə və təhlükəsizlik, yeni texnologiyaların inkişafı və tətbiqi, energetika, ticarət və sair bu kimi mühüm sahələr ölçmələrin dəqiqliyindən, vəhdətindən və doğruluğundan asılıdır. Dünya ticarətinin qloballaşdırılması, malların müasir standartlara uyğun istehsalının təşkili, əhalinin sağlamlığı və təhlükəsizliyi naminə artan qayğı, ətraf mühit problemləri kimi olduqca vacib sayılan bütün bu məsələlər günümüzdə ölçmələrin vəhdətinin təmin edilməsi tələblərini beynəlxalq səviyyədə daha da gücləndirir. Məhz bu baxımdan qlobal bazar şəraitində beynəlxalq və daxili ticarət üçün metrologiya mühüm rol oynayır. Heç bir kəmiyyət metroloji infrastruktur olmadan etibarlı şəkildə ölçülə bilməz.*



Metrologiya, eyni zamanda ölkədə ölçmə, standartlaşdırma, nəzarət və keyfiyyət sisteminin infrastrukturunu yaradaraq keyfiyyətin təmin edilməsi üçün məhsulun xüsusiyyətlərinin müəyyən edilməsini və keyfiyyətə nəzarət üçün hərtərəfli sistemin formalaşmasını təmin edir. İstehsal olunan məhsulların keyfiyyətinin əsasını metrologiya təşkil edir desək heç də yanılmarıq. Bir sözlə, metrologiya ölkənin həyat səviyyəsinin yüksəldilməsində, ətraf mühitin və istehlakçı hüquqlarının qorunmasında, insanların təhlükəsizliyinin təmin edilməsində, elmi-texniki tərəqqinin inkişafında aparıcı rola malikdir.

Vaxtilə dünyada yaşanan iqtisadi yüksəliş, elmin sürətli inkişafı, yeni və fərqli ölçü vahidlərinin yaranması qloballaşan dünya ticarətində və əlaqələrin inkişafında ciddi əngəllər törətdiyindən dünyanın vahid ölçülər sisteminə keçidi zərurəti yaranmışdır. Bu məqsədlə 1875-ci il may ayının 20-də Parisdə Beynəlxalq Diplomatik Konfransda 17 inkişaf etmiş ölkənin hökumət nümayəndələrinin iştirakı ilə məşhur Metrik Konvensiyası imzalanmışdır və hər il bu əlamətdar tarix dünyada Ümumdünya Metrologiya Günü kimi qeyd olunmaqdadır.

Konvensiyaya uyğun olaraq Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büro yaradılmış, daha sonra ölçmələrin metrik sistemi və beynəlxalq vahidlər sistemi tətbiq edilərək onun əsasında Beynəlxalq Ölçmələr Sistemi işlənilib hazırlanmışdır. Metrik Konvensiyasının ilkin hədəfi Konvensiyanı imzalayan bütün ölkələrdə ölçü sisteminin vahidliyinin qorunmasından ibarətdir. Metrologiyanın istifadə etdiyi əsas anlayışlar ölçmə, ölçü aləti, metrologiya və ölçü texnikalarıdır. Həqiqətən də, daha geniş şəkildə ölçmə elmi olan metrologiya kəşf və yeniliklərdə, sənaye istehsalında və beynəlxalq ticarətdə, həyat keyfiyyətinin yüksəldilməsində və qlobal mühitin qorunmasında aparıcı rol oynayır. Bu elm ciddi dəqiqliyə ehtiyac olduqda köməyə gəlir.

Məlumdur ki, ölçmə proseslərinin əsas məsələlərindən biri ölçmənin vahidliyini və onların nəticələrinin doğruluğunu təyin etməkdir. Bu onunla əlaqədardır ki, sənayenin müxtəlif sahələri inkişaf etdikcə, ölçmələrin dəqiqliyinə tələbat da artır, ölçülən kəmiyyətlərin ölçmə diapazonları genişlənir, tezdəyişən kəmiyyətlərin, onların toplularının, proseslərin və sistemlərin xarakteristikalarının ölçülməsinin vacibliyi yaranır. Məhz bu baxımdan inkişaf etmiş dünya ölkələrində bu istiqamətdə mühüm işlər görülməklə bərabər, hüquqi proseslərin tənzimlənməsi üçün zəngin qanunvericilik bazası da formalaşdırılır.

Ölkəmizdə müstəqillik əldə edildikdən sonra respublikada standartlaşdırma və metrologiya sahəsinin inkişafı dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılmışdır. Bu sahə üzrə daha təkmilləşdirilmiş inkişaf və köklü irəliləyişlər məhz Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Belə ki, 2000-ci ildə "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" qəbul edilmiş Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə müvafiq qanunvericilik bazasının əsası qoyulmuşdur. Bunun davamı



olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə eyniadlı, lakin müasir dövrün tələblərinə uyğun hazırlanmış yeni qanun bu sahənin prioritet istiqamətlərini müəyyənləşdirmiş və metrologiyanın inkişafına ciddi təkan vermişdir. Məhz bu Qanun insan həyatının və sağlamlığının qorunması, ətraf mühitin, bitki və heyvanlar aləminin mühafizəsi, dövlətin müdafiəsi və təhlükəsizliyinin təmin edilməsi məqsədilə yerinə yetirilən ölçmələrin obyektiv, etibarlı və müqayisə edilən nəticələrinin alınmasında cəmiyyətin və dövlətin tələbatını təmin etmək və ölçmələrin qeyri-dəqiq nəticələrinin mənfi təsirinin qarşısını almaq məqsədi daşıyır.

Azərbaycanda metrologiya sahəsinin inkişafı bu gün də prioritet sahə kimi dövlətin daim diqqət mərkəzindədir. Belə ki, bu sahədə beynəlxalq qanunvericiliyə uyğun olaraq Prezident cənab İlham Əliyevin 2017-ci il 10 fevral tarixli Fərmanı əsasında "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxs təsis edilib. Bundan başqa, qeyri-neft ixrac potensialının gücləndirilməsi məqsədilə ölçmələrin xarici ölkələrdə tanınması, həmçinin kalibrləmə sertifikatlarının qəbul edilməsi üzərində işlər aparılmaqdadır. Yaradılan bu qurum beynəlxalq təcrübəyə əsasən ölçmələrin vəhdətinin təmin edilməsi, yüksək dəqiqlik sinfinə malik olan işçi etalonların və ölçmə vasitələrinin kalibrlənməsi, ölçmə vasitələrinin tipinin təsdiqi, həmçinin ölkədə istehsal edilən və ya idxal olunan ərzaq və qeyri-ərzaq məhsullarının, tikinti materiallarının və digər məhsulların analizlərinin aparılmasını həyata keçirir. İnstitutda saxlanılan milli etalonların digər ölkələrin milli etalonları ilə ekvivalentlik dərəcəsinin müəyyən edilməsi, Azərbaycan Respublikasının milli etalonlarının beynəlxalq tutuşdurmalarda müqayisəsi və onların beynəlxalq səviyyədə tanınması, həmçinin institut tərəfindən verilən kalibrləmə və ölçmə haqqında sertifikatların beynəlxalq miqyasda tanınması məqsədilə etalon laboratoriyalarının beynəlxalq akkreditasiyası üzərində ciddi işlər aparılmaqdadır.

Hazırda Prezident cənab İlham Əliyevin apardığı uğurlu iqtisadi siyasət nəticəsində ölkəmizin ixrac qabiliyyəti yüksəlmiş, yerli məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması işləri sürətlənmişdir. Bütün bunlar isə metroloji təminatın inkişafından xəbər verir. Ölçmələrin düzgün nəticələri məhsulun keyfiyyətinə və təhlükəsizliyinə, tibbi diaqnostikanın səmərəliliyinə təminat verir, ədalətli ticarətə və ətraf mühitin təmizliyinə imkan yaradır.

Bu gün ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikasında da bu sahədə mühüm tədbirlər həyata keçirilir və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən muxtar respublikamızda metrologiya sahəsində tədbirlərin səmərəli icrası üçün ardıcıl işlər aparılır, metroloji normalara və qaydalara əməl olunması işləri davamlı olaraq diqqətdə saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində xidmətin Metrologiya şöbəsi tərəfindən ötən il ərzində ölçmə vasitələrinin normativ göstəricilərin standarta uyğunluğunun yoxlanılması davam etdirilmiş və ümumilikdə, 8 min 477 ədəd ölçmə vasitəsinin yoxlanılması təmin olunmuşdur.

Muxtar respublikamızda beynəlxalq standartların tələbləri əsas götürülərək metrologiya sahəsinin inkişafı istiqamətində işlər bundan sonra da üstün istiqamət kimi davam etdiriləcəkdir.

**Kamran MEHBALIYEV**
*Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi*

*Əfsanəyə dönən ömürlər*

## Günnüt döyüşlərinin qəhrəman şəhidi



Vətən sevgisi ən ülvi, ən uca sevgidir. Elə bir sevgi ki beşikdən, ana laylasından, ailədən, məktəbdən başlanır, ünvanı isə əbədiyyətdir. Vətənin dar günündə yağı gülləsi qabağına çıxmaq, ölməzlik qazanmaq, şəhid olmaq doğma yurda bəslənilən məhəbbətin ən yüksək zirvəsi, ən böyük şərəf və qürurdur.

Tariximizə belə qürur, qəhrəmanlıq səhifələrindən birini yazan Günnüt əməliyyatının şəhidi, əsgər Tatarov Adil Əli oğludur. O, 1999-cu il yanvarın 28-də Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində doğulmuşdu. Qıraq Kəsəmən kənd tam orta məktəbində orta təhsil almış, 2017-ci ilin aprelində hərbi xidmətə yollanmışdı. O, 2018-ci il mayın 20-dən 27-nə qədər muxtar respublika ərazisində gedən Günnüt hərbi əməliyyatında qəhrəmanlıq göstərərək döyüş tapşırıqlarını yerinə yetirərkən qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib. Şəhidimiz doğulub, boya-başa çatdığı Ağstafa rayonunun Qıraq Kəsəmən kənd qəbiristanlığında dəfn edilib.

Şəhidin anası Şükufə Tatarova ilə telefon əlaqəsi saxladıq. Şükufə xanım bizimlə söhbətində o gündən beş il keçsə də, hələ də yarası təzə kimi səsi titrəyərək dedi: – Adil ailəmizin yeganə oğul övladı, dörd bacının bir qardaşı idi. Onda Vətən sevgisi, məhəbbəti çox böyük idi. Hələ orta məktəbin XI sinfində təhsil alarkən "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının rayon mərhələsində qalib olmuş, diploma təltif edilmişdi. Hərbi xidmətə də "ya qəhrəman, ya da şəhid" amalı ilə yollanmışdı. Orada da nümunəvi əsgər kimi seçilmiş, hərbi hissə üzrə keçirilən "Ən yaxşı snayper" yarışında yüksək nəticələr əldə etdiyinə görə hərbi hissənin komandiri tərəfindən fəxri fərmanla təltif olunmuşdu. 2017-ci ildə xidmət keçdiyi hərbi hissədən ailəmizə təşəkkür məktubu göndərmişdilər. Həmin məktubda yazılanları sizinlə də paylaşmaq istəyirəm: "Övladınız hərbi hissədə xidmət etdiyi müddətdə özünü tərbiyəli, nizam-intizamlı, müqəddəs torpaqlarımızın toxunulmazlığı uğrunda mübarizədə qorxmaz, igid və cəsur bir Azərbaycan əsgəri kimi göstərmişdir. O, hərbi xidmətdə çalışqanlığı və qayğıkeşliyi ilə əsgər yoldaşlarının və komandanlığının dərin hörmətini qazanıb. Hərbi intizamına və nümunəvi xidmətlərinə görə komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Oğlunuz Adil suveren, müstəqil Azərbaycanımızın dövlət mənafeyini yüksək tutaraq, müqəddəs torpaqlarımızın toxunulmazlığı uğrunda öz əsgəri borcunu layəqətlə yerinə yetirmişdir. Vətənimiz Azərbaycanın etibarlı müdafiəçisi olan Adil kimi igid oğul böyütdüyünüzə görə sizə təşəkkür edir, öz minnətdarlığımızı bildiririk". Bir ana üçün övladı haqqında bundan böyük qürur, bundan böyük fəxr hissləri olmaz hər halda – deyir ana. Oğlum vətənpərvər bir övlad kimi həmişə öndə olmağa səy göstərir, ailəmizi qazandığı nailiyyətlərlə qürurlandırırdı. Hərbi xidməti bitirməyinə 4 ay qalmış şəhid xəbəri gəldi. Övladım dostları, hərbçi yoldaşları, müəllimləri arasında o qədər özünə hörmət qazanmışdı ki, dəfn mərasimində onu hamı uca tutdu. Adilin arzusu bu gün işğaldan azad edilmiş torpaqlarımız uğrunda döyüşmək idi. Onun bu müqəddəs arzusunu Adil kimi cəsur, igid Vətən oğulları yerinə yetirdi, onların canı-qanı bahasına torpaqlar işğaldan azad edildi. Bu gün digər şəhidlərimiz kimi, Adilin də ruhu şaddır. 2018-ci ildə Naxçıvana da gəlmişdik, bizi orda çox hörmətlə qarşıladılar, Ulu Öndərin abidəsini və xatirəsinin yaşadıldığı muzeyi ziyarət etdik. Dövlətimiz tərəfindən şəhidlərimizə həmişə diqqət göstərilib. Adil də Müdafiə Nazirliyi tərəfindən ölümündən sonra "Şücaətə görə" medalı, ölkə başçısının müvafiq Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib, – deyə Şükufə ana qeyd etdi.

Məhz 44 günlük şanlı Vətən müharibəsində əldə edilən böyük Zəfərə gedən yolda qüdrətli Ordumuzun Günnüt əməliyyatında göstərdiyi şücaət, qəhrəmanlıq bu gün də böyük qürur hissi ilə xatırlanır. Xalqımız dövlətimizin ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladları ilə fəxr edir. Vətənpərvərliyin ən ali məqamına yüksələn, ölümsüzlük qazanan Şəhidlərimizin əziz xatirəsi illər keçsə də, böyük minnətdarlıq duyğusu ilə yad ediləcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

## "Müzəffər sərkərdənin igid əsgərləri" adlı silsilə tədbirlər keçirilir



Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Vətən uğrunda canlarından keçən şəhidlərimizin tanıdılması və onların keçdiyi şərəfli döyüş yolunu gənclərə aşılamaq məqsədilə "Müzəffər sərkərdənin igid əsgərləri" adlı silsilə tədbirlər keçirilir. Növbəti belə tədbir Naxçıvan Qarnizonu tam orta məktəbində təhsil almış şəhid baş leytenant Orxan Quliyev və gizir Bağır Ələkbərova həsr edilib.

Əvvəlcə Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.

Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov, şəhid valideynləri, qazilər və digər çıxış edənlər ordumuzun qüdrətindən, şəhidlərimizin döyüş zamanı qəhrəmanlıqlarından danışıblar.

Bildirilib ki, kəşfiyyatçı zabitimiz baş leytenant Orxan Quliyev 13 mart 2015-ci ildə Lələtəpə istiqamətində düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olub. Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlı bölmələrində xidmət edən gizir Bağır Ələkbərov 2018-ci ildə Günnüt əməliyyatında iştirak edib. Vətən müharibəsinin də iştirakçısı olan gizir Bağır Ələkbərov 2020-ci il oktyabrın 15-də Hadrut istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. Hər iki qəhrəman Vətən oğlu bir çox orden və medallara layiq görülüb.

Tədbirdə Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri tərəfindən Vətənə, ordumuza, şəhidlərimizə həsr olunmuş şeirlər bədii qiraət edilib, mahnılar səsləndirilib və ordumuzun qüdrətindən bəhs edən videoçarxlar nümayiş olunub.

**Kənan CƏLİLOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 341